**Tarix və onun problemləri, №3 2009**

**İSMAYIL İSMAYILOV**
***Gəncə Dövlət Universiteti***

# BEYNƏLXALQ HUMANITAR PROSESLƏR VƏ ONUN ICTIMAI-SIYASI ƏSASLARININ FORMALAŞMASINDA AZƏRBAYCAN MILLI POTENSIALI (80-ci illər)

XX əsrin 80-ci illərində Azərbaycan dünyada gedən humanitar proseslərin təkcə iqtisadi, elmi və mədəni əsaslarının möhkəmlənib inkişaf etməsi və onun daha da genişlənməsi yönümündə beynəlxalq aləmdə həyata keçirdiyi fəaliyyətdə ölkənin milli potensialından fəal istifadə etməmiş, o, eyni zamanda bu istiqamətdə özünün ictimai-siyasi potensialının da gücündən lazımi dərəcədə bəhrələnməyə səy göstərmişdir. Və o da təsadüfi deyil ki, həmin problem respublikanın xarici siyasətində, onun göstərilən illərdə beynəlxalq iqtisadi, mədəni və elmi sahələri üzrə münasibətləri kimi, ən önəmli yerlərdən birini tutmuşdur. Bu da təbii bir dünyəvi haldır. Belə ki, ictimai həyatımızın və varlığımızın başqa sahələrində olduğu kimi, ictimai-siyasi sahədə də həyata keçirilən beynəlxalq əlaqələr dünyada gedən humanitar sülh və əməkdaşlıq işinin güclənməsinə, insanların bir-birinə yaxınlaşmasına, onların ümumi məqsədlərə nail olmaq üçün apardıqları mübarizədə həmrəyliklərinin möhkəmlənməsinə xidmət edir. Respublikanın xarici siyasətlə məşğul olan müvafiq orqanları öz işlərini təşkil edərkən məhz yuxarıda qeyd olunan mühüm amilləri nəzərə alır və onu özlərinin bu sahədəki əməli fəaliyyətlərində rəhbər tutmuş və göstərilən mərhələdə Azərbaycan Respublikasının beynəlxalq ictimai-siyasi əlaqələri başqa sahələrdə olduğu kimi, həmin dövrdə də Sovet dövlətinin himayəsi altında həyata keçirilirdi. Azərbaycan SSRİ-nin tərkib hissəsi kimi, onun beynəlxalq humanitar əlaqələrində öz ictimai-siyasi potensialı ilə iştirak edirdi.

Aparılmış araşdırmalar göstərdi ki, qeyd olunan dövrdə Sovet dövləti öz xarici siyasətində beynəlxalq ictimai-siyasi əlaqələrin möhkəmlənməsi istiqamətində çox geniş iş aparmış və onu müntəzəm olaraq özünün dünyada apardığı beynəlxalq humanitar siyasətinin mərkəzində saxlamışdır. Ona görə ki, yuxarıda qeyd etdiyimiz kimi, dünyada sülhün, əmin-amanlığın, əməkdaşlıq prinsiplərinin dönmədən həyata keçirilməsi, həmin münasibətlərin qorunub saxlanmasında, inkişaf etdirilməsində ölkənin ictimai-siyasi potensialının iştirakı dünya siyasətinin ən vacib məsələlərindən və siyasi problemlərindən biri kimi həmişə xüsusi yerdə dayanmışdır. Bu amilin əhəmiyyəti getdikcə artır və artmaqdadır. Bütün dövrlərdə olduğu kimi, bu dövrdə də ictimai-siyasi əlaqələrin əhəmiyyəti çox böyük olmuşdur. Məhz onların fəaliyyəti uzun müddət dövlətlərarası münasibətlərin və yer üzündə həyatın qorunub saxlanması naminə yönəldilmişdir. Nüvə, istilik və digər kütləvi qırğın silahlarının istifadə olunmasının qarşısı alınmış və alınmaqdadır. Bundan başqa, həmin illərdə dünya dövlətlərinin ayrı-ayrı ictimai-siyasi və sosial prinsiplər əsasında yaşamalarına baxmayaraq, onlar arasında dinc yanaşı yaşamaq prinsipləri hökm sürmüşdür. Məhz onun nəticəsində də tədqiqat dövründə SSRİ dövlətinin beynəlxalq humanitar proseslərin inkişafı üçün onun ictimai-siyasi əlaqələri geniş olmuşdur. Təkcə belə bir faktı göstərmək kifayətdir ki, tədqiqat dövründə Sovet dövlətinin 500-dən yuxarı qeyri-dövlət ictimai təşkilatlarla beynəlxalq əlaqələri olmuşdur. Bundan başqa, o, dünyada fəaliyyət göstərən 10.000-ə yaxın həmkarlar, gənclər, tələbələr, qadınlar, mədəni-kütləvi, veteranlar, dini və digər təşkilatlarla əlaqə saxlamış və onlarla dünyada humanitar proseslərin sülhün və əmin-amanlığın qorunub saxlanması naminə birgə iş aparmışdır (1, 7 dekabr 1985).

Sovet dövlətinin ictimai-siyasi potensialı tədqiqat dövründə göstərilən təşkilatların dünya miqyasında keçirilən humanitar tədbirlərində iştirak edib, həmin tədbirlərdən sülh və dinc yanaşı yaşamaq, insanlar arasında dostluq və həmrəylik prinsiplərinin təsdiq edilməsi naminə istifadə etmişdir. Onun çoxsaylı nümayəndələri, ictimai təşkilatları dünyanın ictimai-siyasi təşkilatlarının 20.000-dən yuxarı beynəlxalq xarakterli humanitar tədbirində iştirak etmiş və onlardan 1800-ü böyük və ciddi əhəmiyyətə malik dünya xarakterli tədbirlər olmuşdur (20, №7, 1988, s.12-14).

Göstərilən sahədə, yəni humanitar əlaqələr sistemində həyata keçirilən iş həmin vaxtlarda ölkədə fəaliyyət göstərən çoxsaylı ictimai-siyasi təşkilatlar: həmkarlar, gənclər, Sülhü Müdafiə Komitəsi, Asiya və Afrika Ölkələri ilə Həmrəylik Komitəsi, yazıçılar, rəssamlar, kinematoqrafiya birlikləri, sülh fondu, SSRİ-nin Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti, idman təşkilatları, Qardaşlaşmış şəhərlər, həmçinin digər təşkilat və cəmiyyətlər vasitəsi ilə təşkil olunub aparılırdı. Məsələn, qeyd olunan illərdə Sovet Həmkarlar təşkilatı dünyanın 130 dövlətində fəaliyyət göstərən 145 həmkarlar təşkilatı ilə əlaqə saxlayırdı (104. 25 fevral 1987). Hər il Sovet Həmkarlar təşkilatları 1000-dən yuxarı öz xarici həmkarlarının nümayəndə heyətini qəbul edib və 800-dən yuxarı öz nümayəndə heyətini xarici ölkələrə göndərirdi (103, 1 fevral 1982). Təkcə 1981-1986-cı illərdə SSRİ-də xarici həmkarlar təşkilatlarının 6500 nümayəndə heyətləri qəbul edilmişdir, Sovet Həmkarlar İttifaqlarının 4200 nümayəndəsi isə xaricə səfər etmişlər ( 4, 17 mart 1982; 4, buraxılış 25-31, s. 72, 79, 83, 91, 92, 95, 101). Bu nümayəndələr tərkibində Azərbaycan Həmkarlar Təşkilatında fəaliyyət göstərən nümayəndələr olmuşdur.

Həmin dövrdə ölkə gənclər təşkilatının 150 xarici ölkənin 2000 milli, regional, tələbə-gənclər təşkilatı ilə əlaqələri var idi (102, 16 aprel 1987; 116, s.25). 80-ci illərdə SSRİ gənclərinin 4800-dən yuxarı nümayəndəsi xarici həmkarlarının qonağı olmuş, öz növbəsində isə 5800-dən yuxarı xarici gənclər nümayəndəsini SSRİ-də qəbul etmişdir. Göstərilən qarşılıqlı səfərlər zamanı onlar arasında yüzlərlə görüşlər, söhbətlər, tarixi yerlərlə tanışlıq və digər tədbirlər keçirilmişdir.

SSRİ Qadınlar Komitəsinin 130 ölkənin 25 Beynəlxalq milli, regional və digər qadınlar təşkilatı ilə əlaqəsi olmuşdur (1, 1 fevral 1987; 185. s. 56).

Bu istiqamətdə SSRİ Qadınlar Komitəsinin, Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin, Asiya və Afrika ölkələri ilə Həmrəylik Komitəsinin, SSRİ Jurnalistlər İttifaqının, İdman cəmiyyətlərinin,Dünya Qardaşlaşmış şəhərlər Birliyinin, Sovet turist təşkilatlarının və Sovet Sülhü Müdafiə Komitəsinin az rolu olmamışdır. Belə ki, həmin illərdə təkcə SSRİ-nin Xarici Ölkələrlə Dostluq və Mədəni əlaqələr Cəmiyyəti dünyanın 142 dövlətinin 10.000-dən yuxarı təşkilat və cəmiyyəti ilə əlaqə saxlamışdır. Hər il o, dostluq naminə 60.000-dən yuxarı müxtəlif tədbirlər keçirmişdir. Təkcə 1980 - 1988-ci illərdə 420.000 müxtəlif tədbirlər keçirmişdir (6, s. 28-29, 30-32). Asiya və Afrika Ölkələri ilə Həmrəylik Komitəsi dünyanın 90 ölkəsi ilə, SSRİ Jurnalistlər İttifaqı dünyanın 66 ölkəsinin 80 təşkilatı ilə, İdman cəmiyyəti dünyanın 100 ölkəsi ilə, SSRİ-nin 160 şəhəri Dünya Qardaşlaşmış şəhərlər Birliyi vasitəsi ilə dünyanın 65 ölkəsinin 362 şəhəri ilə, Sovet turist təşkilatları dünyanın 400-dən yuxarı xarici turist təşkilatları ilə, Sovet Sülhü Müdafiə Komitəsi dünyanın 130 ölkəsində fəaliyyət göstərən təşkilatlarla əlaqəsi olmuşdur (6, s.28, 32; 36, 8 sentyabr 1987; 99, 8 sentyabr 1987; 7, 19 may 1986; 1, 27 sentyabr 1981).

Qeyd etmək lazımdır ki,başqa sahələrdə olduğu kimi Sovet dövləti bu sahədə də Sovet respublikalarının ictimai-siyasi potensialına arxalanmış və inkişaf etmişdir. Onu da qeyd edək ki, həmin respublikaların, yuxarıda göstərdiyimiz kimi, bu sahədə də fəa-

liyyəti müstəqil olmamış, mərkəzi dövlətin nəzarəti altında həyata keçirilmişdir. Lakin bu vəziyyət həmin respublikaların göstərilən istiqamətdə işinə ciddi maneəçilik etməmişdir. Materiallar göstərir ki, onlar bu sahədə də az iş görməmişlər.

Şübhəsiz ki, həmin işdə Azərbaycanın da potensialı lazım və özünəməxsus rolu olmuşdur. Belə ki, 1980-1990-cı illərdə respublikanın beynəlxalq humanitar münasibətlərinin inkişafında onun ictimai-siyasi əlaqələrinin demək olar ki, bütün istiqamətlərinin inkişafına tövsiyəsi diqqətəlayiq olmuşdur. Beynəlxalq humanitar əlaqələrin genişlənib inkişaf etməsini təmin etmək məqsədi ilə Respublikamız bu istiqamətdə ictiami-siyasi potensialının müəyyən dərəcədə təsir göstərə bilən bütün vasitə və formalardan geniş istifadə edilmişdir. Bu işdə respublikada fəaliyyət göstərən ictimai-siyasi, gənclər, tələbələr, həmkarlar, idman təşkilatlarının, birliklərin və cəmiyyətlərin imkanları səmərəli surətdə həmin problemin həllinə yönəldilmişdir. Bu da, şübhəsiz ki, təsadüfi deyildir. Məhz bu təşkilatlarda respublikanın humanitar həyatında fəal iştirak etmək imkanı olan və geniş ictimai-siyasi, intellektual potensiala malik ictimai qüvvələri birləşmişdir. Məhz həmin qüvvələrə arxalaranaq Azərbaycan tədqiqat dövründə dünyanın 120-125 ölkəsinin 860-870 ictimai və siyasi təşkilatları ilə beynəlxalq əlaqələri olmuşdur. Maraqlı orasındadır ki, bu əlaqələr ildən-ilə genişlənmiş və öz təsir dairəsini artırmışdır. Belə ki, əgər respublikanın ictimaiyyəti 1970-ci ildə dünyanın 60 ölkəsində fəaliyyət göstərən 100 ictimai-siyasi təşkilatla əlaqə saxlayırdılarsa, 1980-ci ildə bu rəqəm 118-765, 1981-ci ildə 119-765, 1982-1990-cı illərdə isə onların sayı 120-125, 860-870-ə çatmışdır (6. s.11, 118, 100-101, 104-105, 111-112; 8, iş №2, s.4-11).

Araşdırılan 80-ci illərdə Azərbaycanın beynəlxalq humanitar əlaqələrinin inkişafına yönəlmiş ictimai-siyasi münasibətləri başqa sahələrdə olduğu kimi müxtəlif formalarda və mümkün olan bütün istiqamətlərdə həyata keçirilmişdir. Bu zaman çərçivəsində göstərilən əlaqələrin möhkəmlənməsinə yönəldilən ən vacib formalardan biri ikitərəfli qaydada müxtəlif ixtisas və görüşlərə malik olan ictimai və siyasi xadimlərin nümayəndələrinin mübadiləsi olmuşdur. Bu Respublikanın ictimai-siyasi potensialının dünyada gedən humanitar proseslərdə iştirakı istiqamətində istifadə olunan formaların ən vacibi və ən təsirlilərindən olan bir əlaqə və əməkdaşlıq forması olmuşdur. Belə bir formada keçirilən humanitar əlaqələr yaşadığımız dövrün geniş spektorunun hər bir ölkənin ictimaiyyəti tərəfindən dərk olunmasına imkan yaratmış, ayrı-ayrılıqda onların ictimai-siyasi proseslərə düzgün baxışlarının formalaşmasına güclü təsir göstərmişdi. İctimaiyyətin bütün təbəqələrində bu və ya digər ölkənin ictimai-siyasi, sosial-iqtisadi, mənəvi və elmi potensialı, insanların həyat tərzi, dünya görüşləri, psixoloji və məntiqi vəziyyəti haqqında geniş təsəvvür yaranmasına xidmət edirdi. Bu formada qurulan və aparılan humanitar münasibətlər dünyada gedən bütün proseslərin məzmun və mahiyyətinə düzgün istiqamət verirdi.

Bu məzmun və mahiyyəti dərk edərək, tədqiqat dövründə respublikanın xarici siyasət korpusu humanitar sahədə öz işini məhz bu amillərin tələbləri əsasında qurmuş və bu formadan fəal istifadə edərək respublika ictimaiyyətinin beynəlxalq əlaqələrinin ə dövrdə humanitar proseslərin daha da genişləndirilməsi istiqamətində xeyli nəticələr əldə etmişdir. Belə ki, əgər 1960-1970-ci illərdə Azərbaycanda dünyanın orta hesabla 110 ölkəsindən ictimaiyyətin müxtəlif sənət sahiblərindən ibarət 600-dən yuxarı rəsmi nümayəndə heyəti səfərdə olmuşdursa, 1980-1990-cı illərdə isə dünyanın orta hesabla (hər iki nümayəndə heyətləri və ölkələrin sayı müxtəlif olmuş) 160-dan yuxarı ölkəsinin ictimaiyyətinin 4000-ə yaxın nümayəndə heyətləri Azərbaycanda olmuşlar. Təkcə 1980-ci ildə belə nümayəndə heyətlərinin sayı 250-dən yuxarı olmuşdur (8, iş №7, s.2, 4, 6, 18).

Demək lazımdır ki, respublikamıza həmin illərdə gələn nümayəndə heyətləri peşə və ictimai-siyasi istiqamətlərinə görə müxtəlif olmuşdur. Onlar demək olar ki, dünya ictimaiyyətinin bütün təbəqələrini əhatə etmişlər. Bunlar siyasi partiyaların, partiya və dövlətlərin birgə nümayəndə heyətləri, qadın, gənclər, həmkarlar təşkilatlarının, parlamentlərin, müxtəlif yaradıcı və ictimai-siyasi birliklərin və müxtəlif beynəlxalq təşkilatların nümayəndə heyətləri olmuşlar. Onlar dünyada o dövrdə mövcud olan bütün ictimai-siyasi, müxtəlif siyasi və dövlət quruluşuna malik olan ölkələrin: sosialist, kapitalist və inkişaf etməkdə olan ölkələrin nümayəndə heyətləri idilər. Bu barədə konkret məlumatlara müraciət edək. Qeyd etmək lazımdır ki, həmin dövrdə demək olar ki, bütün qitələrin ictimaiyyətinin nümayəndə heyəti Azərbaycanda olub, ictimai-siyasi əlaqələrin daha da inkişafına çalışmışlar. Məsələn, Avropa ölkələrindən: Avstriyanın, Belçikanın, Bolqarıstanın, Vatikanın, İngiltərənin, Macarıstanın, ADR-in, Yunanıstanın, Danimarkanın, Qərbi Berlinin, İrlandiyanın, Norveçin, İspaniyanın, Rumıniyanın, AFR-in, Finlandiyanın, Fransanın, Çexoslovakiyanın, İsveçrənin, İsveçin, Yuqoslaviyanın; Asiya dövlətlərindən: Əfqanıstanın, Birmanın, Vyetnamın, Oman respublikasının, İsrailin, Hindistanın, İndoneziyanın, İordaniyanın, İraqın, Kampuçiyanın, Kiprin, Çinin, KXDR-in, Küveytin, Laosun, Livanın, MXR-in, Neapolun, Pakistanın, Səudiyyə Ərəbistanın, Suriyanın, Türkiyənin, Filippinin, Seylonun, Yaponiyanın; Afrika ölkələrindən: Anqolanın, Əlcəzairin, Qananın, Qvineyanın, Kamerunun, Geniyanın, Konqonun, Liberiyanın, Mərakeşin, Mozambikin, Nigeriyanın, Seneqalın, Somalinin, Sudanın, Tunisin, Uqandanın, Efiopiyanın; Şimali və Mərkəzi Amerikadan: Haitinin, Qvatemalanın, Dominikan Respublikasının, Kanadanın, Kosta-Rikanın, Kubanın, Meksikanın, Nikaraquanın, Panamanın, ABŞ-ın, Yamaykanın; Cənubi Amerikadan: Argentinanın, Braziliyanın, Venesuelanın, Kolumbiyanın, Paraqvayın, Perunun, Uruqvayın, Çilinin; Avstraliya və Okeaniya ölkələrindən: Avstraliyanın, Yeni Qvineyanın, Yeni Zellandiyanın, Tanqonun və başqa dövlətlərin ictimaiyyətlərinin nümayəndə heyətləri rəsmi görüşlər üçün respublikamızda olmuşlar (9, iş №1, s.7-13; 8. iş №2, s.1-5).

Tədqiqatdan məlum oldu ki, beynəlxalq aləmdə mövcud olan dövlətlərin ictmaiyyət nümayəndələri həmin illərdə odlar yurduna təkcə rəsmi nümayəndə heyətləri formasında deyil, eyni zamanda onların nümayəndəsi respublikanın ictimai-siyasi xadimlərinin şəxsi qonağı sifəti ilə, ailə üzvləri ilə tanışlıq formasında, sənət istiqaməti formasında və başqa tərzdə Azərbaycanda olmuşlar. Bu formada respublikamıza gələn xarici ictimai və siyasi xadimlərin sayı o dövrdə 9.000-ə yaxın olmuşdur. Təkcə 1980-1985-ci illərdə respublikaya belə qaydada 6.000-ə kimi xarici qonaq gəlmişdir (9, iş №6, s.7-13; 8. iş №2, s.1-5). Respublikaya gələn xarici dövlətlərin ictimaiyyət nümayəndə heyətlərinin səfəri əməli və məqsədəuyğun işə xidmət etmişdir. Onların gəlişi geniş ictimai-siyasi kampaniyaların keçirilməsi ilə xarakterizə olunmuşdur. Belə ki, nümayəndə heyətinin üzvləri müxtəlif illərdə respublikamızda 100.000-dən çox iştirakçısı olan 30.000-dən yuxarı tədbirdə iştirak etmiş, 20.000-dən çox görüşlər keçirmiş, 10.000-dən artıq şəxsi əlaqə yaratmışdır. Onlar 12.000-dən artıq müəssisədə, kolxoz və sovxozlarda, idarə və təşkilatlarda, mədəniyyət və elm ocaqlarında, tarixi yerlərdə olmuşlar (9, iş №6, s.7-13; 8. iş №2, s.1-5; iş №1, s.3). Bu da onlara imkan vermişdir ki, respublikanın ictimai-siyasi, sosial-iqtisadi, mənəvi və mədəni, elmi və texniki potensialı haqqında geniş məlumat əldə etməyə nail olsunlar və respublika əhalisinin həyat tərzi ilə yaxından tanış olsunlar.

Göstərmək lazımdır ki, Azərbaycanın beynəlxalq ictimai-siyasi əlaqələrinin inkişaf edib möhkəmlənməsi işinə o dövrdə bu sahədə fəaliyyət göstərən bütün dövlət orqanlarının, ictimai-siyasi təşkilatların, birliklərin, idarə və müəssisələrinin potensialları

cəlb edilmişdir. Bu istiqamətdə xarici ölkələrlə bilavasitə əlaqə yaradarkən ölkənin müxtəlif cəmiyyət və birliklərinin, gənclər, qadın, həmkarlar təşkilatlarının, idman və turizm orqanlarının imkanlarından geniş istifadə edilmişdir. Bu baxımdan Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin həyata keçirdiyi tədbirləri diqqətəlayiq hesab etmək olar. Bu Cəmiyyət 80-ci illərdə respublikanın beynəlxalq ictimai-siyasi əlaqələrinin möhkəmləndirilməsinə və onun hərtərəfli inkişafına kömək edən cəmiyyətlərdən ən kütləvisi olmuşdur. Həmin dövrdə o 1.500.000-dən çox əhalini, 5.000-dən artıq müəssisə, idarə və təşkilatı öz ətrafında birləşdirmişdir. Onun 500-dən artıq daimi üzvü var idi. Respublika səviyyəsində onun 30 şəhər və rayon şöbəsi fəaliyyət göstərirdi (8. iş №1, qovluq 10, s.3). Bu faktlar həmin təşkilatın həm özünə, həm də onun yerli təşkilatlarına şərait yaratmışdır ki, özünün beynəlxalq əlaqələrini əhəmiyyətli dərəcədə genişləndirə bilsin. Həmin illərdə bu cəmiyyət bütün imkanlardan istifadə edərək həmin istiqamətdə xeyli iş görmüşdür. O, xarici təşkilatların, cəmiyyətlərin dəvəti ilə hər il Azərbaycan ictimaiyyətinin çoxsaylı dəstələrini xaricə ezamiyyətə göndərmişdir. Onların içərisində respublikada o dövrdə fəaliyyət göstərən ictimai-siyasi təşkilatların, görkəmli elm və ayrı-ayrı yaradıcı kollektivlərin nümayəndələri, dostluq cəmiyyətinin öz fəal üzvləri və başqaları var idi. Həmin qayda üzrə Dostluq Cəmiyyəti xarici ölkələrin ictimaiyyətinin nümayəndələrini də respublikamızda qəbul etmişdir. Məsələn, tədqiqat dövründə Dostluq Cəmiyyətinin xətti ilə Azərbaycan ictimaiyyətinin 600-dən çox nümayəndəsi xarici ölkələrdə olmuş, öz növbəsində isə xarici ölkələrdə fəaliyyət göstərən ictimai-siyasi təşkilatların, elm və mədəniyyət xadimlərinin 800-dən artıq nümayəndəsi respublikamızda qəbul edilmişdir. Bu cəmiyyətin işində belə əlaqələr üçün yeganə yol olmamışdır. Həmin dövrdə Dostluq cəmiyyəti digər kanallar vasitəsilə də xarici ölkələrin ictimaiyyətlərin 130.000-ə yaxın üzvünü respublikamızda qəbul etmiş, 25.000-dən yuxarı öz nümayəndəsini xarici dövlətlərə yola salmışdır (8. iş №11, s.12-21). Bu faktları ayrı-ayrı ölkələr ilə həyata keçirilən əlaqələr timsalında da aydın görmək olar. Məsələn, təkcə 1980-ci ildə respublikamıza İsveçrə, Finlandiya, İtaliya, Portuqaliya, İsveç, İspaniya, Hindistan, Macarıstan, Laos dostluq cəmiyyətlərinin nümayəndə heyətləri səfər etmişlər. Azərbaycan ictimaiyyətinin nümayəndə heyəti isə həmin il öz növbəsində İsveçrə və İspaniyada olmuşdur (1, F.26, 93, qeyd 1, sax.vah.6, s. 6, 7, 14, 22, 31, 33-34, 43, 53, 55, 59; 124, 3 sentyabr 1980).

Bu baxımdan 1981-1983-cü illərdə həyata keçirilən əlaqələr də maraq doğurur. Belə ki, 1981-ci ildə «Finlandiya-SSRİ», «Kuba-SSRİ», «Qvineya-Bisau», «Finlandiya» cəmiyyətlərinin, 1983-cü ildə isə Belçika, Finlandiya, İspaniya və başqa ölkələrin ictimaiyyətinin nümayəndə heyətləri Azərbaycanda olmuş və müxtəlif görüşlər keçirmiş, xalqımızın mədəniyyəti, tarixi və məişəti ilə yaxından tanış olmuşlar (9, iş №7, s.44; 11, 3-5 iyul 1985, 2-3 oktyabr 1982; 12, 25 avqust, 2 sentyabr, 5 oktyabr 1983). Bu iş sonrakı illərdə də davam etdirilmişdir. Məsələn, 1986-cı ildə «Belçika-SSRİ», «Hindistan-SSRİ», «İsveçrə-SSRİ», «ABŞ-SSRİ», «Macarıstan-SSRİ», «Laos-SSRİ» dostluğu cəmiyyətlərinin nümayəndə heyətləri respublikamızın həyatı ilə tanış olmuş və işgüzar görüşlər zamanı mədəni əlaqələrin genişlənməsi məsələləri müzakirə edilmişdir (13. s.60). 1987-ci ilin avqustunda Əfqanıstanın Paktika, Paktiya əyalətləri, Xost dairəsi ilə Azərbaycan Respublikası ictimaiyyəti arasında birbaşa əlaqələr yaradılması barədə protokol imzalanmışdır (11, 11oktyabr 1987). Həmin ildə Xarici Ölkələrlə Sovet Dostluq Cəmiyyətinin xətti ilə «Finlandiya-SSRİ», «Laos-SSRİ», «Kampuçiya-SSRİ» dostluq cəmiyyətlərinin nümayəndə heyətləri Azərbaycanda olmuşlar. Səfərlər zamanı keçirilən çoxsaylı görüşlər ictimai-siyasi əlaqələrin genişlənməsinə imkan yaratmışdır. Həmin ildə Botsvana, Qana, Qambiya, Zimbabve, Lesoto, Nigeriya, Seyşel adaları, Tan-

zaniya, Namibiya, Cənubi Afrika Respublikası, Macarıstan həmkarlar ittifaqları və ictimaiyyətinin nümayəndə heyəti Bakıda olmuşdur (100, 6 iyun, 30 iyul, 1, 27 avqust, 1, 18 oktyabr, 11 dekabr 1986; 2-3 iyul, 1, 8 may, 11 sentyabr, 7 noyabr, 19 noyabr 1987). Çikaqo (ABŞ) mütərəqqi ictimaiyyətinin nümayəndəsi Ester Vikstr başda olmaqla SSRİ ilə dostluq hərəkatı tərəfdarlarından bir qrupu Azərbaycan ictimaiyyəti ilə əlaqələr yaratmaq məqsədilə Respublikamıza gəlmişdilər (11, 1 may 1987). Öz növbəsində Bakı şəhəri ictimaiyyətinin nümayəndə heyəti İraqda olmuş, Azərbaycan Dostluq Cəmiyyəti bir sıra xarici ölkələrin milli bayramları ilə əlaqədar ictimaiyyətin yığıncaqlarını keçirmişdir. Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin bu sahədə gördüyü işlər təkcə yuxarıda göstərilənlərlə bitməmişdir. Onun xətti ilə respublikanın ictimai-siyasi, elmi, texniki və mədəniyyət xadimləri, əmək adamları, həm xarici ölkələrdə, həm də respublikamızda keçirilən beynəlxalq xarakterli tədbirlərdə fəal iştirak etməyə çalışmış və bu sahədə də müəyyən müvəffəqiyyətlər əldə etmişdir. Bu tədbirlərin ən maraqlısı o dövrdə xarici ölkələrdə Azərbaycan Respublikası nümunəsində keçirilən SSRİ günlərində, Azərbaycanda isə xarici dövlətlərin günlərinin keçirilməsində Dostluq Cəmiyyətinin fəallarının iştirakı olmuşdur. Tədqiqat dövründə Dostluq cəmiyyətinin üzvlərinin, onun kollektiv və fərdi fəallarının iştirakı ilə Avropa, Asiya və Amerika qitələrinin 100-ə qədər ölkəsində Azərbaycanın nümunəsində SSRİ günləri, Azərbaycanda isə dünyanın 40 ölkəsinin günləri keçirilmişdir. Məsələn, həmin dövrdə Hindistanda, ADR-də, Niderlandda, İsveçrədə, İordaniyada, Qərbi Berlində, İsveçdə, Nepalda, Fransada, Malidə, Yaponiyada, Avstriyada, Finlandiyada, Əlcəzairdə, Çexoslovakiyada, Monqolustanda, Danimarkada, Portuqaliyada, Qvineya-Bisauda, Mərakeşdə, İraqda, Suriyada, Maltada, Seneqalda, İtaliyada, İngiltərədə, Belçikada və digər dövlətlərdə Azərbaycan ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə SSRİ günləri, Azərbaycanda isə həmin dövrdə İordaniya, Əfqanıstan, Avstriya, Vyetnam, İran, İtaliya, Finlandiya, Meksika, Portuqaliya, Laos, Dakar, Nepal, Monqolustan və başqa ölkələrin günləri keçirilmişdir (8, iş №3, s.7, 11; 12, 1981, 16 yanvar; 1982, 25, 28 may, 10 avqust, 2 noyabr; 1986, 11-14 oktyabr, 9 aprel; 1983, 10 avqust, 2 noyabr; 1986, 11-14 oktyabr, 9 aprel; 1983, 10 avqust, 2 noyabr; 100, 1980, 15 yanvar, 1981, 24 may, 24 dekabr; 1982, 16 may; 1984, 2 noyabr; 1985, 28 mart; 1986, 9 may, 9 aprel, 7-22 noyabr; 14, 1981, 24 ay; 1982, 2 iyun; 1983, 3 yanvar; 1986, 17 sentyabr), o cümlədən, 1981-ci ilin iyununda İordaniya və Nepalda Azərbaycan Respublikası günləri keçirilmişdir (9, s.45; 11, 18 iyun, 2 dekabr 1981). 1982-ci ilin mayında Qərbi Berlində və Vyetnamda ənənəvi Azərbaycan günləri, mayın sonunda Azərbaycanda İordaniya günləri (11, 16, 28 may, 24 noyabr 1982). 1983-cü ildə Fransa, Danimarka, Portuqaliya, Avstriya, Malta, Qvineya-Bisau, Mozambik, Böyük Britaniya, Liviya, AFR, Niderland, İsveç, İordaniya, Nepal, Hindistan, VSR, Qərbi Berlin, Belçika, Mali və Lüksemburqda Azərbaycan günləri, 1983-cü ilin sentyabrında isə Bakıda Avstriya (8. iş №2, s.7-8) və Vyetnam mədəniyyəti günləri keçirilmişdir.

Tədqiqat dövründə Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti respublikanın beynəlxalq ictimai-siyasi əlaqələrini genişləndirmək məqsədi ilə başqa formalardan da, o cümlədən informasiya və məlumat mübadiləsi formasından fəal istifadə etmişdir. Belə ki, tədqiqat dövründə xarici ölkələrdə fəaliyyət göstərən təşkilatlara sistematik qaydada informasiya, məlumat və təbliğat xarakterli materiallar göndərmişdir. Həmin materiallarda Azərbaycanın iqtisadiyyatı, ictimai-siyasi vəziyyəti, mədəniyyəti, elm və texnika sahəsində əldə etdiyi nailiyyətlər, əhalinin sosial və mədəni həyat tərzi barədə məlumatlar verilirdi. Cəmiyyət təkcə özünün orqanı olan «Sovet Azərbaycanı bu gün» jurnalını (həmin jurnal 7 dildə, o cümlədən 6 xarici dildə çıxırdı)

120 ölkənin 860-dan yuxarı ünvanına göndərmişdir (12, 29 sentyabr 1983). Ondan başqa, o dünya dövlətlərinə foto şəkillər, qamplastinkalar, bukletlər və digər maraqlı materiallar da göndərmişdir ki, onların da sayı 1.248.045 nüsxəyə çatmışdır. Dünyanın 26 ölkəsində Mədəni mərkəzlər yaradılıb fəaliyyət göstərmişdir. Tədqiqat dövründə Cəmiyyət dünyanın müxtəlif ölkələrində, o cümlədən 114 ölkədə respublikanın ictimai həyatına həsr edilmiş 15 adda foto sərgilər keçirmişdir. Təkcə 1982-ci ildə onun təşəbbüsü ilə 110 ölkədə, o cümlədən Hindistanda, Əlcəzairdə, Bolqarıstanda, Avstraliyada, İtaliyada, İngiltərədə, Mərakeşdə, İsveçdə, Niderlandda, Liviyada böyük formatlı foto sərgi keçirilmişdir. Öz növbəsində isə Azərbaycanda 10 ölkənin, o cümlədən AFR-in, İngiltərənin, Portuqaliyanın, Macarıstanın, Seneqalın və digər ölkələrin foto sərgiləri keçirilmişdir (8, iş №4, s.3-7; iş №5, s.2-5). Dostluq cəmiyyəti eyni zamanda respublikamızda təhsil alan və təcrübə keçən xarici vətəndaşlarla birlikdə xarici ölkələrin ictimai-siyasi hadisələrinə həsr olunmuş tədbirlər, o cümlədən mitinqlər, iclaslar, görüşlər, həmrəylik tədbirləri keçirmişdir. Tədqiqat dövründə onun təşəbbüsü ilə 3000-dən çox belə xarakterli tədbir keçirilmişdir. 2000-dən çox dsotluq görüşləri təşkil edilmişdir. Həmin tədbirlərdə 2,5 milyondan yuxarı adam iştirak etmişdir (8, iş №4, s.3-7; iş №5, s.2-5; 11, 11 may 1980; 26 may 1982; 30 noyabr, 1 dekabr 1985; 37, 5 dekabr 1980; 2 iyul 1982; 12. 1980, 27 noyabr, 31 dekabr; 1981, 4 aprel, 26 may, 6 noyabr; 1982, 7 sentyabr; 1985, 31 oktyabr; 1986, 16 avqust, 13, 21, 27 sentyabr, 5 noyabr; 15, №1, 1986, s.72-73).

Bu istiqamətdə 1983-cü ildə xarici ölkələrdə yaşayan həmvətənlərlə əlaqə yaratmaq məqsədi ilə təsis edilmiş «Vətən» cəmiyyəti də az rol oynamamışdır. (11, 31 dekabr 1987). Bu cəmiyyət tərəfindən dünyadakı azərbaycanlı diasporu ilə əlaqə saxlayıb və onları birləşdirmək üçün çdxsaylı tədbirlər həyata keçirilmişdir. Həmin cəmiyyətin köməyi ilə xaricdəki həmvətənlərimiz xalqımız haqqında ictimai rəyin formalaşmasında, sülh, tərksilah uğrunda mübarizədə böyük rol oynamışdır. Onlar Danimarkada, Strasburqda, İspaniyada, Almaniyada, Türkiyədə, İsveçdə, ABŞ-da və başqa ölkələrdə Azərbaycan kultur dərnəkləri, cəmiyyətlər yaradıb, kitablar buraxıb və qəzetlər çap etmişlər. Xaricdəki azərbaycanlılar arasında görkəmli elm, mədəniyyət, incəsənət və ictimai xadimlər, dünya şöhrətli yazıçı və şairlər vardır. Dünyaya səpələnmiş azərbaycanlılar arasında olan böyük iş adamları başqa xalqlara üz verən fəlakətlərdən qurtarmaq üçün onlara xeyirxahlıqla yardım etmişlər. İsveçrədə yaşayan həmyerlimiz Kamal Zeynalzadə Çernobıl faciəsindən zərər çəkənlərə yardım fonduna külli miqdarda yardım göstərmişdir. Az müddətdə fəaliyyət göstərməsinə baxmayaraq «Vətən» cəmiyyəti xətti ilə 1988-ci ildə respublikamıza 18, 1989-cu ildə isə 47 həmvətənimiz gəlmişdir. Xaricə isə 96 mədəniyyət və incəsənət xadimi ezam edilmişdir (16, 24 dekabr 1989). 1989-cu ildə Kanada, İran və Türkiyədə yaşayan dörd nəfər həmvətənlərimiz Bakının ali məktəblərinə qəbul olunub, təqaüdlə təmin edilmişdir (17, iş №3, 1989, s.8). Bir il sonra «Vətən» cəmiyyəti xaricdən 10 nümayəndə heyətini qəbul etmiş, xaricə isə 15 nümayəndə heyəti göndərmişdir. Qeyd etmək lazımdır ki, xaricdə yaşayan həmvətənlərlə əlaqələr onların yaşadığı ölkələrin xalqları ilə də mehriban ünsiyyətə, xalqımız haqqında həqiqətin yayılmasına kömək edirdi (18, iş №2, 1990, s.1).

Azərbaycan Respublikasının da daxil olduğu SSRİ-nin 1980-ci illərdə beynəlxalq fəaliyyətinin əsas məqsədi xarici ölkələrlə ictimai həyatın bütün sahələrində əlaqələr qurmaq, genişləndirmək və möhkəmləndirmək olmuşdur. Bu da qanunauyğun və məntiqidir. Çünki beynəlxalq aləmdə, başqa sahələrdə olduğu kimi, humanitar sahədə də geniş əlaqələrin yaradılması və inkişaf etdirilməsi xalqların bir-birini yaxşı tanımasına, qarşılıqlı anlaşmaya, onların yaxınlaşmasına, həmrəyliyinin möhkəmləndirilməsinə kö-

mək edir. Bu əlaqələr inamsızlığı və etimadsızlığı aradan qaldırır, dövlətlərarası münasibətlərdə sülhə şərait yaradır və əməkdaşlığın genişlənməsinə güclü təsir edir.

Bu da təsadüfi deyil ki, 80-ci illərdə bəşəriyyətin maddi və mənəvi həyatının yaxından inteqrasiyası, sosial-siyasi dəyişikliklər və elmi-texniki inkişaf, dinc yanaşı yaşamaq sahəsində əlaqələr və mənəvi ünsiyyətlə paralel olaraq humanitar sahədə beynəlxalq münasibətlər xalqlar və dövlətlər arasında əməkdaşlığın ən mühüm formasına çevrilir və artıq çevrilmişdir.

Göstərilən illərdə xalqlar arasında humanitar əlaqələrin ictimai siyasi sahələrdə beynəlxalq münasibətlərin ümumi kompleksində mühüm yer tutmuş və dinc yanaşı yaşamaq prinsiplərinin bərqərar olmasına bilavasitə təsir göstərmişdir. Bu qanunauyğun proses planetin yeni-yeni dövlətlərini və xalqlarını əhatə edərək, dövlətlər arasında əlaqələrin həcmini, səmərəliliyini, forma və metodlarını zənginləşdirmişdir. Deməli, beynəlxalq humanitar əlaqələrin genişləndirilməsi humanizm məqsədlərinə və bəşəriyyətin gələcək inkişafına kömək edir. Doğrudan da, möhkəm sülh və dinc yanaşı yaşamaq üçün müxtəlif xalqlar bir-birini daha yaxşı tanımalı və əlaqələr saxlamalıdırlar. Bu işdə humanitar əlaqələr əhəmiyyətli rol oynamış və oynamaqda davam etməkdədir. 80-ci illərdə SSRİ-nin, o cümlədən onun tərkibində olan milli Sovet respublikalarının həmçinin Azərbaycan SSRİ-nin beynəlxalq humanitar əlaqələri ikitərəfli, həm də çoxtərəfli əsasda həyatda keçirilib, geniş coğrafi miqyasa malik olub. Bu əlaqələrin siyasi mənası və əhəmiyyəti ondan ibarətdir ki, belə əlaqələr müxtəlif dövlət və ictimai təşkilatlar tərəfindən suverenliyə hörmət, hüquq bərabərliyi, bir-birinin daxili işlərinə qarışmamaq və qarşılıqlı fayda prinsipləri əsasında həyata keçirilmişdir. Məhz buna görə də humanitar sahədə beynəlxalq əlaqələr həm kəmiyyət, həm də keyfiyyətcə daim yüksələn xətt üzrə inkişaf edir. Belə əlaqələr sülh, dinc yanaşı yaşamaq və nüvə fəlakətinə qarşı mübarizədə müxtəlif partiya, cəmiyyət və təşkilatları birləşdirərək ümumbəşəri mənafeyə xidmət göstərmişdir. Qeyd etmək lazımdır ki, tədqiqat dövründə Azərbaycanın da bu prinsiplərin təntənəsi naminə aparılan mübarizədə öz yeri, öz payı, öz dəsti-xətti olmuşdur. Azərbaycan dövlətinin keçdiyi tarixi yolun bütün inkişaf mərhələsinin tədqiqi göstərir ki, ictimai həyatda bir dövlət kimi formalaşmağa başladığı anlardan beynəlxalq aləmdə öz xarici siyasətində daim humanitar əlaqələrə müraciət etmiş və onun sülh, beynəlxalq əməkdaşlıq və təhlükəsizlik, xalqlar arasında həmrəylik kimi həyati əhəmiyyəti olan prinsiplərinə əsaslanmış və həmin prinsiplərin dünyanın ictimai həyatında bərqərar olması uğrunda dönmədən mübarizə aparmışdır. O, SSRİ-nin tərkibində olduğu dövrdən 1991-ci ilə qədər bir müstəqil dövlət kimi fəaliyyət göstərə bilməsə də, onun müstəqilliyi mərkəzi dövlət tərəfindən tapdalansa da, heç bir dövlət hüququna malik olmasa da, xüsusən beynəlxalq siyasət barədə Azərbaycan özünün iqtisadi, sosial və mənəvi sərvətlərinin böyük potensialına arxalanan humanitar əlaqələri hesabına dünyanın ictimai sistemində özünü tanıda bilmiş və mərkəzi totalitar dövlətin beynəlxalq siyasətinin həyata keçirilməsində mühüm rol oynamışdır. Bu zəruri bir hal idi və belə də olmalıydı. Belə ki, keçmiş Sovet İttifaqının «sülh naminə, əməkdaşlıq naminə» beynəlxalq aləmdə göstərdiyi fəaliyyət daim həm ölkənin, həm də onun tərkibində olan bütün respublika xalqlarının, o cümlədən Azərbaycan xalqının əməyinə, hər bir respublikada yaranmış nəhəng milli potensialına, o cümlədən humanitar sərvətlərə arxalanmışdır.

## ƏDƏBİYYAT

1.Газета «Известия» 1980-1990 гг.
2.Журнал «Огонек» 1980-1990 гг.
3.Газета «Труд» 1980-1990 гг.
4.Ежегодник Большой Советской Энциклопедия. Выпуск 15-31.Москва 1980-1990 гг.
5.Газета «Правда» 1980-1990 гг.
6.Журнал «Международная жизнь» 1980-1990 гг.
7.Газета «Аргументы и факты» 1980-1990 гг.
8.Azərbaycan Xarici ölkələrdə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin dövrü arxivi.
9.Azərbaycan SSRİ Xarici İşlər Nazirliyinin dövrü arxivi.
10.Журнал «Азербайджан сегодня». 1980-1990 гг.
11.Газета «Баку» 1980-1990 гг.
12.Газета «Бакинский рабочий» 1980-1990 гг.
13.Qasımov M.C. Azərbaycan Respubliksı Dünya meridianlarında. Bakı. 1992.
14.«Bakı» qəzeti. 1980-1990-cı illər
15.Журнал «Вопросы истории». 1980-1990 гг.
16.Газета «Вышка» 1980-1990 гг.
17.Azərbaycan «Vətən» Cəmiyyətinin dövrü arxivi.
18.Azərbaycan yazıcılar İttifaqının dövrü arxivi.

**ИСМАИЛ ИСМАИЛОВ**

**МЕЖДУНАРОДНЫЕ ГУМАНИТАРНЫЕ ПРОЦЕССЫ И НАЦИОНАЛЬНЫЙ ПОТЕНЦИАЛ АЗЕРБАЙДЖАНА В ФОРМИРОВАНИИ ИХ ОСНОВ (80-е годы XX века)**

В развитии международных гуманитарных связей очень велико значение общественно-политических связей. В 80-х годах XX века возросло значение деятельности в этой области. Азербайджанская ССР также опиралась на общественно-политический потенциал, создавая международные гуманитарные связи.

**ISMAYIL ISMAYILOV**

**INTERNATIONAL HUMANITARIAN PROCESSES AND AZERBAIJAN'S NATIONAL POTENTIAL IN THE FORMATION OF THE SOCIAL-POLITICAL BASES**

The author stresses the great importance of the social-political relations on the development of the international humanitarian relations. The paper indicates that Azerbaijan SSR based on social-political potential while establishing international humanitarian relations.

***Rəyçilər: t.e.n.P.Kərimzadə, t.e.d.İ.X.Zeynalov.***
***Gəncə Dövlət Universiteti Elmi Şurasının 30 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №05).***